“TƏSDİQ EDİRƏM”
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
rektoru professor C. Cəfərov
“___” ________________ 2020-ci il

# AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ ELMİ – TƏDQİQAT MƏRKƏZİNİN ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi – Tədqiqat Mərkəzi (bundan sonra – Mərkəz) ADPU – nun fəaliyyət istiqamətlərini prioritet seçməklə, təbiət və humanitar elmlər sahəsində fundamental və tətbiqi tədqiqatlar üzrə müasir texnologiyalar və tədqiqat üsullarının köməyi ilə araşdırmalar aparan, əldə edilən nəticələrin tədris prosesində və praktikanın başqa sahələrində istifadə olunması üçün müvafiq təkliflər verən struktur bölmədir.

1.2. Mərkəzin fəaliyyəti mövcud qanunvericiliyə, o cümlədən Təhsil Nazirliyinin müvafiq qərar, əmr və sərəncamlarına, ADPU-nun Nizamnaməsinə, Elmi Şuranın qərarlarına, rektorun əmr və sərəncamlarına həmçinin bu Əsasnaməyə uyğun təşkil edilir.

1.3. Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən ADPU-nun müvafiq struktur bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir, Azərbaycan Milli Elmlər Akademiyasının institutları, başqa elmi müəssisələr və ali məktəblər, qeyri-hökumət təşkilatları, xarici elm və təhsil qurumları ilə əməkdaşlıq edir, birgə tədqiqatlar aparır.

1.4. Mərkəz Təhsil Nazirliyinin razılığı ilə ADPU-nun Elmi Şurasının qərarı əsasında yaradılır və ləğv edilir.

## 2. Mərkəzin fəaliyyətinin məqsədi və vəzifələri

2.1. Mərkəzin fəaliyyətinin məqsədi təbiət və humanitar elmlərin müxtəlif istiqamətləri, o cümlədən bilavasitə universitetin fəaliyyət sahəsi ilə bağlı tədqiqatların aparılmasında iştirak etməklə ADPU – nun elmi-tədqiqat sahəsində

nailiyyətlərinin yüksəldilməsi, elmi - pedaqoji potensialının daha da gücləndirilməsindən ibarətdir.

**2.2. Mərkəzin vəzifələri aşağıdakılardır:**

2.2.1. ADPU – nun elmi – pedaqoji fəaliyyətinin inkişafında, elmi kadrların hazırlanmasında iştirak etmək;

2.2.2. Müxtəlif elmi istiqamətlər üzrə aktual problem və mövzularla bağlı təkliflər hazırlamaq, müvafiq tədqiqat işlərini yerinə yetirmək;

2.2.3. ADPU – nun müvafiq struktur bölmələri ilə səmərəli əlaqələr yaratmaq, professor – müəllim heyətini, tələbə, magistrant və doktorantları Mərkəzdə aparılan elmi tədqiqatlara cəlb etmək;

2.2.4. Elmi – tədqiqat nəticələrini müzakirə etmək, həmçinin elmi konfrans, seminar, dəyirmi masa, mühazirə və s. formatda tədbirlər keçirmək, bu sahədə müxtəlif elm və təhsil müəssisələri, tanınmış alim və mütəxəssislərlə müntəzəm əməkdaşlıq etmək;

2.2.5. Elm, təhsil, innovasiya mərkəzlərinin qrant layihələri, proqram və müsabiqələri çərçivəsində müstəqil və birgə elmi – tədqiqat işləri aparmaq;

2.2.6. Beynəlxalq elmi əlaqələrin davamlı inkişafı üçün ardıcıl tədbirlər görmək, nəzəri və praktiki əhəmiyyət kəsb edən birgə proqram və layihələr həyata keçirmək;

2.2.7. ADPU – da ali təhsilin elmi problemlərinin həllində, tədqiqatın nəticələrinin tədris prosesinə tətbiqində və onun təkmilləşdirilməsində iştirak etmək;

2.2.8. ADPU – da elmi fəaliyyətin və tədris prosesinin təşkili ilə bağlı vəziyyəti öyrənmək məqsədilə sorğular keçirmək, təhlillər aparmaq, nəticələrə dair rəy və təkliflər hazırlayıb, rəhbərliyə təqdim emək;

2.2.9. Mərkəz əməkdaşlarının elmi fəaliyyətinin təşviq edilməsi və ixtisas səviyyəsinin artırılması üçün tədbirlər görmək;

2.2.10. Mərkəzin illik fəaliyyət planını və görülmüş işlərin hesabatını hazırlayıb rəhbərliyə təqdim etmək;

2.2.11. Bu əsasnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək;

**3. Öz vəzifələrini yerinə yetirmək üçün Mərkəzin aşağıdakı hüquqları vardır:**

3.1. Mərkəzdə həyata keçiriləcək elmi - tədqiqat mövzularının və elmi rəhbərlərin müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq və elmi-tədqiqat işlərinin aparılmasına şərait yaratmaq;

3.2. Müasir beynəlxalq praktikanın tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq elm və təhsil qurumları ilə əməkdaşlıq əsasında onların bu sahədə təcrübəsini öyrənmək;

3.3. Fəaliyyət sahələri üzrə rəy və təkliflər vermək, təhlil və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.4. Əməkdaşların fəaliyyətinin stimullaşdırılması məqsədilə rəhbərliyə onların rəğbətləndirilməsinə dair təqdimat vermək, fərqlənənlərin həvəsləndirilməsi üçün başqa tədbirlər görmək;

3.5. Mərkəzin Əsasnaməsi ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Mərkəzin idarə olunması və strukturu**

4.1. Mərkəzə ADPU rektorunun əmri ilə vəzifəyə təyin olunan müdir rəhbərlik edir.

4.2. Mərkəzin əməkdaşlarını rektor vəzifəyə təyin və vəzifədən azad edir.

4.3. Mərkəzin strukturu:

4.4.1. Fundamental tədqiqatlar bölməsi;

4.4.2. Tətbiqi tədqiqatlar bölməsi;

4.4.3. Türk araşdırmaları bölməsi.